# Ümummilli Lider Heydər Əliyevin respublika rəhbərliyinə gəlişinin 50-ci ildönümü ilə əlaqədar tədbirlər keçirilib

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin respublika rəhbərliyinə gəlişinin 50-ci ildönümü ilə əlaqədar Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər həyata keçirilir. Silsilə tədbirlər çərçivəsində Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində "Tarixin 50 ili, 50 ilin tarixi" devizi altında keçirilən təntənəli mərasimdə Müdafiə Nazirliyinin rəsmiləri, general, zabit və kursantlar, eləcə də mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə hərbi məktəbin qərargahının qarşısında Ulu Öndərin möhtəşəm abidəsi ziyarət edilib, önünə güllər düzülüb, xatirəsinə ehtiram ifadə olunub.

Mərasim iştirakçıları unudulmaz Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsini bir dəqiqəlik sükutla yad etdikdən sonra Dövlət himni oxunub. Sonra "Tarixin 50 ili, 50 ilin tarixi" adlı videoçarx nümayiş olunub.

Təntənəli mərasimdən əvvəl Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani Ümummilli Lider Heydər Əliyevin vətənə və xalqa həsr etdiyi mənalı ömür yolu barədə ətraflı məlumat verib. O, Ulu Öndərin siyasi kursunun bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini nəzərə çatdırıb. Qeyd olunub ki, Azərbaycanın XX əsrdəki inkişafının əsası məhz 1969-cu il iyulun 14-də qoyulub. Həmin tarixdə siyasi hakimiyyətə gələn dahi şəxsiyyət Heydər Əliyev xalqımızın həyatında möhtəşəm intibaha nail olub, milli müstəqil dövlətin bərpası üçün zəruri olan bütün işləri görüb. 1969-cu ilə qədər SSRİ-də aqrar respublika kimi tanınan Azərbaycan həmin tarixdən sonra sürətlə inkişaf edərək sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş tətbiq olunduğu, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan diyara çevrilib. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ölkəmizin müstəqillik tarixinin, parlaq və işıqlı gələcəyinin başlanğıcı kimi mühüm əhəmiyyət daşıyır.

Müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev vurğulayıb ki, Ulu Öndərin ölkəmizə rəhbərliyinin birinci dövrü, eyni zamanda, milli özünüdərkin oyanışının, soykökə qayıdışın başlanğıcı dövrüdür. Dahi rəhbərin bütün fəaliyyəti xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanması ideyasına əsaslanırdı. Uzaqgörən böyük şəxsiyyət həmin dövrdə bütün ideoloji, siyasi manelərə sinə gərərək Azərbaycan xalqının milli inkişaf konsepsiyasını irəli sürüb, ictimai şüurdakı qorxunu aradan qaldırıb, cəmiyyəti bütün sahələrdə gələcək mənəvi və iqtisadi yüksəlişə ruhlandırıb. Hər bir Azərbaycan vətəndaşına belə bir inam aşılanıb ki, bu xalq nə vaxtsa öz azadlığına qovuşacaq.

Nazir müavini uzaqgörən lider Heydər Əliyevin ötən əsrin 70-ci illərində yaratmış olduğu indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyin xalqımızın və dövlətimizin taleyindəki müstəsna əhəmiyyətindən geniş bəhs edərək bu hərbi təhsil ocağının müasir Azərbaycan Ordusunun yaranmasında və formalaşmasında müstəsna rolundan danışıb.

Mərasim iştirakçıları nazir müavininin Ulu Öndərlə bağlı xatirələrini maraqla dinləyiblər.

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini - İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi, general-mayor Rasim Əliyevin də xalqımızın xilaskar oğlu barədə xatirələri tədbir iştirakçılarında xoş təəssüratlar yaradıb.

Respublikanın Xalq artisti Mübariz Tağıyevin, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyətinin təqdim etdiyi "Nəğmələrdə, ürəklərdə yaşayır Ulu Öndər" adlı ədəbi, musiqili və xoreoqrafik kompozisiya şəxsi heyətə unudulmaz anlar bəxş edib.

Yekunda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin rəisi, general-mayor Füzuli Salahov çıxış edərək tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

* * *

Sumqayıtın baş meydanında ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişinin 50-ci ildönümünə həsr olunmuş bayram konserti təşkil olunub.

AZƏRTAC xəbər verir ki, konsertin aparıcıları 1969-cu il iyulun 14-də Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə respublikanın bütün sahələrində tamamilə yeni dövrün başladığı, böyük intibahın təməlinin qoyulduğunu vurğulayıblar. Bildirilib ki, Ümummilli Lider müdrikliyi, qətiyyəti, uzaqgörənliyi və əsl liderlik keyfiyyətləri ilə qısa müddət ərzində respublikamızı keçmiş SSRİ-nin inkişaf edən ölkələrindən birinə çevirib.

Bu gün öz intibahının yeni mərhələsini yaşayan Sumqayıtın da sovet hakimiyyəti dövründə inkişafı nəinki keçmiş SSRİ-də, bütün dünyada tanınması Heydər Əliyevin adı ilə bağlıdır. Həmin dövrdə Heydər Əliyevin böyük qayğısı sayəsində şəhər tarixinin ən əlamətdar səhifələri yazılıb. Sumqayıtlılar Ulu Öndərin xüsusi diqqət və qayğısını hər zaman hiss ediblər. Şəhərin sosial-iqtisadi inkişafında, sənayenin formalaşmasında, elmin, təhsilin, mədəniyyətin tərəqqisində bu dahi insanın əvəzsiz xidmətləri danılmaz bir faktdır. Ölkəmizə rəhbərliyi müddətində 16 dəfə Sumqayıtda olan Heydər Əliyevin hər səfəri şəhərin tarixinə mühüm hadisə kimi yazılıb. Bu il şəhər statusu verilməsinin 70 yaşı tamam olan Sumqayıt ötən əsrin 40-cı illərinin sonunda salınsa da, məhz ulu öndər Heydər Əliyevin birinci dəfə ölkəmizə rəhbərliyi illərində bu şəhər inkişaf yoluna qədəm qoydu.

Vurğulanıb ki, Sumqayıt bu gün Ümummilli Liderin ən layiqli davamçısı İlham Əliyevin xüsusi qayğısı ilə əhatə olunub. Sumqayıt İlham Əliyevin həyata keçirdiyi uğurlu iqtisadi siyasəti nəticəsində Ulu Öndərin vaxtilə qarşıya qoyduğu hədəflərə yaxınlaşaraq möhtəşəm nailiyyətlər əldə edib.

Konsertdə şəhərin bədii özfəaliyyət kollektivlərinin və solistlərin təqdim etdiyi biri birindən maraqlı, rəngarəng çıxışları böyük maraqla qarşılanıb.

* * *

Müasir müstəqil Azərbaycan dövlətinin banisi, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin hakimiyyətə gəlişinin 50 illiyi münasibətilə Ağdam rayonunun Quzanlı qəsəbəsində konsert keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşəbbüsü, Beynəlxalq Muğam Mərkəzinin, Ağdam Rayon İcra Hakimiyyətinin dəstəyi ilə təşkil olunan konsertdə məcburi köçkünlər, Ağdam rayonunun sakinləri, N saylı hərbi hissənin əsgər və zabitləri iştirak ediblər.

Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı müstəsna xidmətlərindən söz açıb, onun respublikaya ilk dəfə rəhbərlik etdiyi dövrdə bugünkü müstəqilliyimiz üçün mühüm iqtisadi və mənəvi potensialın yaradıldığını bildirib. Qeyd edilib ki, məhz Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətdən uzaqlaşdırıldığı və təqiblərə məruz qaldığı dövrdə Qarabağda erməni separatizmi baş qaldırıb, Ermənistan ərazi iddiaları irəli sürərək hərbi təcavüzə əl atıb. Müstəqil dövlətçiliyimizin xilası və xalqımızın üzləşdiyi bəlalardan qurtulması onun yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıtması sayəsində mümkün olub.

Diqqətə çatdırılıb ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində yurd-yuvasını tərk etmiş qaçqınlar və məcburi köçkünlərlə iş sahəsində sistemli dövlət siyasətinin əsası da ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və bu siyasət müasir dövrdə daha da zənginləşdirilərək Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üçün ardıcıl olaraq kompleks tədbirlər həyata keçirilir. Bu kateqoriyadan olan insanlar üçün indiyədək bütün zəruri infrastruktur obyektləri ilə təchiz edilmiş 104 qəsəbə tikilib istifadəyə verilib. Birinci vitse-prezident Mehriban xanım Əliyeva hələ də ağır şəraitdə yaşayan məcburi köçkünlərin yeni mənzillərə köçürülməsi ilə bağlı işlərin sürətləndirilməsinə dair verdiyi tapşırığın icrasını şəxsən nəzarətdə saxlayır və bu sahədə işlər ardıcıllıqla davam etdirilir.

Sonra respublikamızın tanınmış incəsənət ustaları ağdamlılar qarşısında maraqlı konsert proqramı ilə çıxış ediblər. Konsertdə əsasən xalq mahnıları, muğam və təsniflər ifa olunub.

* * *

Ağsu Rayon İcra Hakimiyyətinin və YAP Ağsu rayon təşkilatının birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin 50 illiyinə həsr edilən tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə şəhərin mərkəzindəki Heydər parkında Ulu Öndərin abidəsini ziyarət edib, heykəlin önünə çiçəklər düzüblər.

Rayon icra hakimiyyətində keçirilən tədbirdə Dövlət himni səsləndirilib.

İcra hakimiyyəti başçısının birinci müavini Rasim Novruzov çıxış edərək Ümummilli Liderin öz xalqı qarşısında xidmətlərindən danışıb.

Tədbirdə rayon icra hakimiyyətinin müavini Sevil Mirzəliyeva "Azərbaycan tarixində Heydər Əliyev imzası" mövzusunda məruzə edib, YAP Ağsu rayon təşkilatının sədri Əli Hüseynovun, şəhər 1 saylı məktəb-liseyin direktoru Sənan Nemətovun çıxışları dinlənilib. 50 il əvvəl iyulun 14-də görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçildiyi günün ölkəmizin həyatında tarixi bir gün olduğunu diqqətə çatdıran natiqlər vurğulayıblar ki, Ulu Öndər müstəqil Azərbaycan dövləti üçün bir insanın həyatı boyunca edə biləcəyi hər şeyi edib və nəhayət, özünün ən möhtəşəm əsərini - müstəqil Azərbaycanı yaradıb.

Azərbaycan.- 2019.-14 iyul.- S.8.